# Minik üzərində olan piyada gəzənə, piyada gəzən oturan kəsə, az olanlar isə çoxluğa salam verir

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: «Minik üzərində olan piyada gəzənə, piyada gəzən oturan kəsə, az olanlar isə çoxluğa salam verir». Buxarinin rəvayətinə görə: «Kiçik olan böyüyə, yoldan keçən oturana, azlıq isə çoxluğa salam verir».

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) insanlar arasında salamlaşmanın ədəbini bu şəkildə bildirmişdir: ''Əs-sələmu aleykum və rahmətullahi və bərakətuh'' (Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun), yaşı az olan böyüyə, minikdə olan piyadaya, piyada oturana və sayca az olanlar çoxluğa salam verir.

https://www.sunnah.global/hadeeth/az/show/4243